**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ ŞƏXSİYYƏTİN SOSİALLAŞMASININ SƏCİYYƏVİ CƏHƏTLƏRİ

İxtisas: 7207.01-Sosial fəlsəfə

Elm sahəsi: Fəlsəfə

İddiaçı: **Ülviyyə Tacir qızı Mehralıyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı–2021**

Dissertasiya işi Bakı Dövlət Universitetinin “Fəlsəfə” kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: fəlsəfə elmlər doktoru, professor
**Fikrət Məmməd oğlu Əfəndiyev**

Rəsmi opponentlər: fəlsəfə elmlər doktoru, professor
**Əlikram Mirhəsən oğlu Tağıyev**

fəlsəfə elmlər doktoru, professor
**Əyyub Sevdim oğlu Kərimov**

fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Elşən Əsgər oğlu Bayramzadə**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 Dissertasiya Şurası.

Dissertasiya şurasının sədri: fəlsəfə elmlər doktoru
**İlham Ramiz oğlu Məmmədzadə**

Dissertasiya şurasının elmi katibi: fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Arif qızı Həsənova**

Elmi seminarın sədri: fəlsəfə elmlər doktoru, dosent
**Afaq Baloğlan qızı Rüstəmova**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir şəraitdə şəxsiyyət, onun cəmiyyətdə mövqeyi və fəallığı, sosiallaşması, sosial-mədəni mühitlə münasibətləri kimi məsələlər geniş müzakirə olunan və ciddi aktuallıq kəsb edən problemlərdən biridir. Bu bir həqiqətdir ki, şəxsiyyət sosial mühitin, onun müxtəlif strukturlarının təsirinə məruz qalır və yaşadığı, fəaliyyət göstərdiyi şəraitlə spesifik əlaqə və münasibətdə olur. Belə ki, cəmiyyətdəki sosial faktlar (etik qaydalar, qanunlar, dini dəyərlər və s.) fərdlərin düşüncəsindən, iradəsindən və vəziyyətindən asılı olmayaraq hər zaman onlara müəyyən formada təsir göstərir, onların sosiallaşmasında, şəxsiyyət kimi yetkinləşməsində dərin iz buraxır. Təsadüfi deyildir ki, bir çox nüfuzlu filosoflar, sosioloqlar fərd-cəmiyyət münasibətlərində cəmiyyətin və onun elementlərinin fərd üzərində fəal, çox əhəmiyyətli təsir gücünün olduğunu xüsusi olaraq vurğulamışlar.

Mövcud elmi ədəbiyyatda sosiallaşmanın məzmununa dair müxtəlif yanaşmalara rast gəlinir. Lakin həmin yanaşmaların əksəriyyətində ümumi hesab edə biləcəyimiz belə bir məqam var ki, o da həmin prosesdə fərdin cəmiyyətdəki mövcud sosial normaları, mədəni dəyərləri və davranış nümunələrini mənimsəyərək cəmiyyətə inteqrasiya olunmasının ön plana çəkilməsidir. Bu mənada sosiallaşmanı şəxsiyyətin formalaşması və inkişafı prosesi kimi dəyərləndirə bilərik. Lakin qeyd etməliyik ki, şəxsiyyətin sosiallaşması bütün dövrlər və cəmiyyətlər üçün bir sıra ümumi cəhətlərə malik olsa da, burada fərqli xüsusiyyətlər də vardır. Bu baxımdan müasir dövrdə Azərbaycan cəmiyyətində ictimai həyatın bütün sahələrində baş vermiş əsaslı dəyişikliklər şəxsiyyətin sosiallaşması probleminə yeni tərzdə yanaşmağı, beynəlxalq miqyasda baş verən dəyişikliklərin, müxtəlif gərginlik məqamlarının, eyni zamanda ciddi maraq doğuran yeniliklərin hərtərəfli araşdırmağı zəruri edir. Qeyd olunan bu vacib məqamların gənc müstəqil ölkə olan Azərbaycan üçün əhəmiyyəti getdikcə artmaqdadır.

Dissertasiya mövzusunun fəlsəfi tədqiqat obyekti kimi aktuallığı aşağıdakı məqamlarla şərtlənir:

- Şəxsiyyətin sosiallaşması problemi dünya inkişafının indiki mərhələsinin başlıca meyli kimi qloballaşma konteksində də xüsusi aktuallıq kəsb edir. Ümummilli Liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, qədəm qoyduğumuz əsrdə “ *qloballaşma prosesi çox vaxt heç də*

*nikbinlik doğurmur. Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin perspektivləri hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin sabitliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir. Sözsüz ki, beynəlxalq hüquq prinsipləri və normalarının aliliyi, dəyişikliklərin təkamül xarakteri, qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqətlə yanaşı, hər bir ölkənin səciyyəvi milli cəhətlərinin də nəzərə alınması bu prosesin müəyyəedici istiqamətləri olmalıdır* ”[1]. Ölkəmizdə şəxsiyyətin sosiallaşmasını uğurla reallaşdırmaq üçün bir tərəfdən qloballaşmanın inkişafına öz töhfələrimizi artırmalıyıq, digər tərəfdən isə qarşımızda duran bir çox ciddi problemləri həll etməliyik, insan-cəmiyyət münasibətlərini zamanın tələblərinə uyğun olaraq optimallaşdırmalıyıq. Başqa sözlə, dünya inkişafının ümumi meyli ilə Azərbaycan cəmiyyətinin səciyyəvi xüsusiyyətlərini daha sıx əlaqələndirmək istiqamətində səylərimizi gücləndirməliyik.

- Şəxsiyyətin sosiallaşması prosesi həm də mədəniyyətin inkişaf səviyyəsi, mövcud mədəni mühitdən asılıdır. Mədəniyyət şəxsiyyətin dəyərlər oriyentasiyasının formalaşmasına, onun məqsədlərinə güclü təsir göstərir. Hər bir cəmiyyətdə şəxsiyyətin formalaşması mədəni-tarixi xarakter daşıyır. Məhz mədəni-tarixi prosesin gedişində şəxsiyyət inkişaf edir. Buna görə də sosiallaşma prosesini mövcud cəmiyyətin mədəni mühiti ilə qarşılıqlı əlaqədə öyrənmək aktuallıq kəsb edir.

- Şəxsiyyətin sosiallaşması probleminin aktuallığını şərtləndirən çox mühüm amillərdən biri müasir şəraitdə informasiya-kommunikasiya texnologiyalarının geniş yayılması, cəmiyyətin inkişafına təsir göstərən əsas elementlərdən birinə çevrilməsidir. İKT öz imkanları və yenilikləri ilə insanların həyat və fəaliyyətinin ayrılmaz hissəsi kimi çıxış edir. Nəzərə almaq lazımdır ki, Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində dinamik inkişaf edən ölkələr sırasındadır. Bu şübhəsiz, şəxsiyyətin formalaşması və sosiallaşması prosesinin yeni məqamları kimi əsaslı şəkildə araşdırılmalıdır.

Problemin işlənmə səviyyəsi baxımından bir neçə məqama diqqət

---

[1] Əliyev H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət. // "Azərbaycan" qəzeti. – 2000, - 30 dekabr.

yetirilməsini vacib sayırıq. Əvvəla, əksər tədqiqatçılar insanların öz həyatı müddətində mənsub olduqları cəmiyyətin sosial-mədəni normalarını, dəyərlərini mənimsəməsini zəruri hesab etmişlər. Lakin bəziləri bu normalara, dəyərlərə tənqidi yanaşmağı bu prosesin vacib elementi kimi qiymətləndirmişlər. İkincisi, zaman keçdikcə sosiallaşma probleminin xüsusi olaraq araşdırıldığı coğrafi məkan getdikcə genişlənmişdir. Şəxsiyyət və onun sosiallaşması problemi müxtəlif bilik sahələrinə aid olduğundan onun tədqiqatçıları da müxtəlif sahələri (fəlsəfə, psixologiya, sosiologiya, tarix, etnoqrafiya, mədəniyyətşünaslıq, pedaqogika, etika, teologiya və s.) təmsil edirlər. Əslində belə demək olar ki, problemin əhatəliliyi, çoxaspektliliyi, ictimai baxımdan əhəmiyyətliliyi müxtəlif elm sahələri nümayəndələrinin birgə səylərini tələb etmişdir. Deməli, şəxsiyyətin sosiallaşmasını fənnlərarası konteksdə öyrənilən problem kimi dəyərləndirmək olar.

Şəxsiyyətin sosiallaşmasına dair son illərin ədəbiyyatını nəzərdən keçirdikdə məlum olur ki, bu problemin müxtəlif aspektləri barəsində ciddi elmi axtarışlar aparılıbdır. Onların bir qismini yığcam şəkildə nəzərdən keçirmək məqsədəuyğundur. Bunlar əslində mövcud tədqiqatların ümumi kütləsi və aparılan araşdırmaların elmi səviyyəsi barəsində müəyyən təsəvvür yaradır.

İlk növbədə şəxsiyyət və onun inkişafının müasir problemlərini araşdıran müəllifləri qeyd etmək olar: R.Əzimovanın[2], Ə. Abbasovun, Ə. İ.İbrahimovun, İ.R.Məmmədzadənin[3], Ə.S.Bayramovun, Ə.Ə.Əlizadənin, N.Cərulla qızının[4], M.Rzayevin[5] [6], A.Rüstəmovanın[7], Ə.Tağıyevin[8] [9],

---

[2] Əzimova, R. İnsanşünaslıq XXI-əsrin elmidir / R.Əzimova. - Bakı: Təknur, - 2012. – 156 s.

[3] Məmmədzadə, İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında / İ.Məmmədzadə. - Bakı: Təknur, - 2009. - 226 s.

[4] Cərulla qızı, N. Mütəfəkkirlər şəxsiyyət haqqında / N. Cərulla qızı. - Bakı: Azərnəşr, - 1991. – 160 s.

[5] Rzayev, M. Müasir şəxsiyyət (sosial–fəlsəfi təhlil) / M. Rzayev. - Bakı: MBM, - 2015. – 534 s.

[6] Rzayev, M. Qloballaşma və şəxsiyyət / M.Rzayev. - Bakı: Sabah, - 2010. – 251 s.

[7] Rüstəmova, A. B. Müasir dünya və Azərbaycan reallıqları: fəlsəfi təhlil / A.Rüstəmova. - Bakı: AFPoliqrAF, - 2017. - 240 s.

[8] Tağıyev, Ə. Milli kimlik fəlsəfəsi /Ə.Tağıyev. - Bakı: Zərdabi LTD MMC, - 2013. - 64 s.

[9] Tağıyev, Ə. Qloballaşma və millilik fəlsəfi-siyasi reallıqlar kontekstində / Ə. Tağıyev. – Bakı: Təknur, - 2010. - 146 s.

Məcid Əfəndiyevin, İsmayıl Vəliyevin, İ.S.Konun, Ç.X.Kulinin, P.S.Kuznetsovun, L.N.Qumilyovun[10], S.Hantinqtonun[11] və başqalarının əsərləri məhz bu qəbildəndir. Bu əsərlərdə şəxsiyyətin formalaşması və inkişafı mürəkkəb, ziddiyyətli proses kimi səciyyələndirilir, həmin prosesə təsir göstərən amillər (cəmiyyətin inkişafı, insanların sosial və maddi vəziyyəti, onların dövlət və cəmiyyət münasibətləri, kütləvi informasiya vasitələrinin fəaliyyəti araşdırılır, maraqlı ümumiləşdirmələr aparılır.

Tədqiqatların ikinci qrupunda şəxsiyyətin sosiallaşmasının çox mühüm amili kimi mədəniyyət, milli-mədəni və dini tolerantlıq məsələlərini nəzərdən keçirən əsərləri birləşdirmək olar. Bu əsərlərin müəllifləri - N.Abbasov [12], H.Abdallı, Z. Şabanov [13], akad. R.Ə.Mehdiyev[14], N.Ə.Abdullayeva[15], R.Aslanova[16] [17], İ.Məmmədzadə[18] [19], S.Y.Məmmədəliyeva [20], R.Mirzəzadə[21], A.M.Aslanov, T.İ.Aslanov,

---

[10] Гумилев, Л.Н. Ритмы Евразии: эпохи и цивилизации / Л.Н. Гумилев, - Москва: АСТ, - 2008. - 606 с.

[11] Хантигтон, С.Столкновение цивилизаций / С. Хантигтон. - Москва: АСТ, - 2005. - 357 с.

[12] Abbasov, N. Müasir şəraitdə Azərbaycan dövlətinin mədəniyyət siyasəti və mənəvi dəyərlərin inkişaf amilləri / N. Abbasov. - Bakı: Təknur, - 2008. - 239 s.

[13] Abdallı, H., Şabanov, Z. Qadın ailədə, siyasətdə, təhsildə, dində, ədəbiyyatda. / H. Abdallı, Z. Şabanov. - Bakı: Avropa,- 2013. -332 s.

[14] Mehdiyev, R. Ə. Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi //- Bakı: Strateji təhlil, Azərbaycanın daxili və xarici siyasəti beynəlxalq münasibətlər üzrə analitik jurnal,- 2011. №1 (2) aprel-iyun,- s.7-36.

[15] Abdullayeva, N. Milli-mənəvi mədəniyyətimizdə islam dəyərləri / N. Abdullayeva. - Bakı: Biznes Universiteti Nəşriyyatı, - 2015. – 169 s.

[16] Aslanova, R. XXI əsr: Yeni mədəniyyət məkanına inteqrasiya / R.Aslanova. - Bakı: Nurlan, - 2007. – 446 s.

[17] Aslanova, R. Qloballaşma və mədəni müxtəliflik / R. Aslanova. - Bakı: Elm, - 2016. - 340 s.

[18] Məmmədzadə, İ. Mədəniyyətlərin qarşılıqlı təsir fəlsəfəsi və almanların Cənubi Qafqazda məskunlaşması / İ.Məmmədzadə. - Bakı: “Print-E-service” MMC, - 2017. – 159s.

[19] Məmmədzadə, İ. Bir daha Fəlsəfə haqqında / İ.Məmmədzadə. – Bakı: - Elm və təhsil, - 2019. – 200 s.

[20] Məmmədəliyeva, S. Qloballaşma dövründə mədəniyyətin fəlsəfi aspektləri / S. Məmmədəliyeva. – Bakı: Nurlar, - 2006. – 224 s.

[21] Mirzəzadə, R. Multikulturalizm siyasəti: Din və gender dialoqunda / R. Mirzəzadə. - Bakı: Təknur, - 2013. – 167 s.

S.A.Əhmədova, N.A.Niftiyev [22], K.Burdax [23], O.İ.Karpuxin, N.A.Berdyayev, N.İ.Kiyaşenko, R.Rzayeva, Q.S.Süleymanova, L.A.Şvaçkina [24] və başqaları mədəniyyəti, elmi, təhsili sosiallaşmanın mühüm amilləri kimi nəzərdən keçirir, milli-mədəni və dini tolerantlığı inkişafın, tərəqqinin, sabitliyin mühüm şərti kimi əsaslandırırlar. Bu əsərlər dissertasiya işinin ayrı-ayrı yarımfəsillərinin işlənilməsində mühüm mənbələr sırasına aid edilə bilər.

Nəhayət, tədqiqatların digər bir qismində[25] [26] [27] isə virtual aləm məsələsi nəzərdən keçirilir, şəxsiyyətin sosiallaşmasında həmin aləmin rolu işıqlandırılır, bu sahədəki problemlərə diqqət cəlb olunur.

Beləliklə, şəxsiyyətin sosiallaşmasının müxtəlif aspektlərinin araşdırılmasında ciddi, əsaslı uğurlar şübhəsizdir. Lakin həyatımızda baş verən mühüm dəyişikliklər, dünyada artan gərginliklər konteksində cəmiyyətimizdə şəxsiyyətin sosiallaşmasının səciyyəvi meyillərinin və xüsusiyyətlərinin sosial-fəlsəfi aspektdə tədqiqi vacibdir. Başqa sözlə, müasir dövrün tələbləri baxımından getdikcə yeniləşən və zənginləşən materiallar əsasında qeyd edilən problemin dissertasiya tədqiqatı səviyyəsində araşdırılmasına ehtiyac var.

**Tədqiqatın obyekti və predmeti**. Dissertasiya işinin mövzusuna uyğun olaraq tədqiqatın obyektini və predmetini aşağıdakı kimi müəyyənləşdirə bilərik:

Tədqiqatın obyektini hazırda Azərbaycanda yaşayan və fəaliyyət göstərən şəxsiyyət təşkil edir; Predmetini isə müasir şəraitdə Azərbaycan

---

[22] Niftiyev, N. Azərbaycanda birgəyaşayış və multikulturalizm / N.Niftiyev. - Bakı: MTR mətbəəsi, - 2015. – 407 s.

[23] Бурдах, К. Реформация. Ренессанс. Гуманизм / К. Бурдах - Москва: РОССПЭН, - 2004. –162 с.

[24] Швачкина, Л.А. Идея гуманности в исламе // Экономические и гуманитарные исследования регионов, Научно-теоретический журнал, - 2010. № 4, – с. 8.

[25] Ağayeva, Z. B. Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının insan şüuruna təsirinin bəzi sosial nəticələri //AMEA, Tarix, fəlsəfə və hüquq seriyası, - 2013. - N1, - s. 274- 283.

[26] Кортунóв, В. Рассудок. Разум. Дух / В. Кортунóв. – Москва: Фонд содействия социальному развитию «Новая Евразия», - 2017. – 872 с.

[27] Маклюэн, М. Понимание медиа: внешние расширения человека / М . Маклюэн. - Москва: Кучково поле, - 2007. - 464 с.

cəmiyyətində şəxsiyyətin sosiallaşması prosesinin səciyyəvi cəhətlərinin müəyyənləşdirilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin başlıca məqsədi müasir dövrdə Azərbaycan cəmiyyətində şəxsiyyətin sosiallaşma prosesini araşdırmaqdan və bu prosesə xas olan səciyyəvi cəhətləri təhlil etməkdən ibarətdir. Mövzunun sosial-fəlsəfi aspektinə müvafiq olaraq, bu məqsəddən irəli gələn aşağıdakı vəzifələri müəyyənləşdirə bilərik:

- sosiallaşmanın mürəkkəb və ziddiyyətli proses olan sosial-fəlsəfi mahiyyətini aşkarlamaq ;
- şəxsiyyətin sosiallaşmasına təsir edən amilləri müəyyənləşdirmək və onları səciyyələndirmək;
- şəxsiyyətin sosiallaşması prosesini Azərbaycan cəmiyyətində tarixən qərarlaşmış ənənələr və müasir meyillər prizmasından təhlil etmək;
- müasir sosiomədəni transformasiya şəraitində cəmiyyətimizdə baş verən dəyişiklikləri, meyilləri izləmək və bu konteksdə şəxsiyyətin sosiallaşmasında yeni məqamların meydana çıxmasını araşdırmaq;
- şəxsiyyətin sosiallaşmasını sosiomədəni və humanist dəyərlərin, habelə virtual aləmin təsir imkanları baxımından nəzərdən keçirmək;

**Tədqiqat metodları.** Tədqiqat prosesində reallaşdırılan vəzifələrin xarakterindən asılı olaraq, analiz və sintez, induksiya və deduksiya, müşahidə, abstraklaşdırma, ümumiləşdirmə, abstrakdan konkretə yüksəlmə, konkret-tarixi, tarixi-müqayisəli və sistemli yanaşma, analogiya və fərqləndirmə kimi metodlara müraciət olunmuşdur.

**Tədqiqatın empirik bazasını** 2017-ci ilin sentyabr-dekabr aylarında əhali arasında tərəfimizdən keçirilmiş anket sorğusu təşkil edir. Sorğuda təsadüfi seçmə üsulu Bakı şəhərinin 5 rayonunu (Yasamal, Səbail, Binəqədi, Nəsimi və Suraxanı) əhatə etməklə 200 respondent iştirak etmişdir. Sorğunun birinci mərhələsində seçmə küllüsü və vahidi müəyyənləşdirilmiş, anket sualları hazırlanmışdır. İkinci mərhələdə təsadüfi seçmə yolu ilə respondentlər müəyyənləşdirilmiş və eyni zamanda pilot sorğusu keçirilmişdir. Sonuncu – III mərhələdə isə sorğunun özü keçirilmiş, məlumat emal olunmuş və təhlil olunmuşdur. Sorğuda iştirak edənlərin 55 faizini kişi, 45 faizini qadınlar təşkil etmişdir. Respondentlərin 25 faizi 18-25, 35 faizi 26-33, 15 faizi 34-41, 12 faizi 42-49, 10 faizi 50-57, 3 faizi isə 58-65 yaşlarında olan şəxslərdən ibarət

olmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- Sosiallaşma insanın bütün həyatı boyu davam edən təbii-fasiləsiz prosesdir;
- Şəxsiyyətin sosiallaşması prosesinə ailə, təhsil, KİV, idman, coğrafi şərait və s. amillərin rolunun təsiri danılmazdır;
- Hər hansı mühitdə, cəmiyyətdə sosiallaşan vətəndaş həmin cəmiyyətin özünə, tələblərinə uyğundur;
- İstənilən məkan və zamanda sosiallaşma prosesində cəmiyyətin üzvləri həmin cəmiyyətin ideyasını mənimsəmiş olurlar;
- Mədəniyyət şəxsiyyəti formalaşdırmaqda mühüm rol oynayır. Sosiallaşma prosesinin dayanması mədəniyyətin məhvi ilə nəticələnə bilər;
- Sosiallaşmanın yeni amili kimi meydana çıxan virtual reallıq şəxsiyyətin dünyagörüş və dəyərlər sisteminə təsir göstərməklə onun formalaşmasında yeni tendensiyalar yaradır.

**Tədqiqatın elmi yeniliyini** aşağıdakı kimi ümumiləşdirə bilərik:

- Azərbaycan mentalitetinin inkişafına qərbləşmənin və şərq mədəniyyətinin təsirləri və bu iki istiqamətin sintezini təşkil edən azərbaycançılıq ideologiyasının rolu tədqiq olunmuşdur;
- cəmiyyətdə mövcud olan ziddiyyət, münaqişələrin səbəbinin məhz dəyərlər sistemindəki dəyişikliklər olması, cəmiyyətimizdə bütün sahələrdə baş verən dəyişikliklərin şəxsiyyətin köhnə dəyərlərdən azad olaraq yenilərinə qovuşması prosesi ilə müşahidə olunduğu göstərilmişdir;
- sosiomədəni və humanist dəyərlərin şəxsiyyətin sosiallaşmasına təsiri daha fəal və əsaslı olaraq araşdırılmış, "humanist şəxsiyyət modelinin " zəruriliyi əsaslandırılıb;
- sosiallaşmanın elementi kimi internet və daha geniş virtual reallıq insanın sosiallaşmasının güclü bir agenti rolunda çıxış etməsi araşdırılmışdır.
- Cəmiyyətimizdə şəxsiyyətin sosiallaşmasına xas olan başlıca meyilləri və xüsusiyyətləri müəyyənləşdirmək məqsədi ilə xüsusi sosioloji tədqiqat keçirilmiş, onun materialları işlənilmiş və dissertasiya işinin müvafiq hissələrində nəzəri müddəaları əsaslandıran faktlar qismində təqdim olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** İşin elmi-nəzəri və

praktik əhəmiyyətinin aşağıdakı məqamlarını qeyd etmək olar:

- Dissertasiyada qoyulan və həllinə cəhd göstərilən bir sıra problemlər, sonrakı tədqiqatçılar üçün araşdırma obyektinə çevrilə və problemin daha əsaslı öyrənilməsinə zəmin ola bilər;
- Dissertasiyada araşdırılan bir çox problemlər müasir şəraitdə yeniyetmələrin və gənclərin sosiallaşma prosesində tətbiq oluna bilər;
- Dissertasiya işindəki materiallardan sosial-siyasi və humanitar fənnlərin tədrisində, konfransların keçirilməsində, sosiomədəni layihələrin hazırlanmasında istifadə oluna bilər;
- Müasir dövrdə şəxsiyyətin sosiallaşması probleminin araşdırılması praktik baxımdan cəmiyyətdə baş verən proseslərlə, islahatlarla birbaşa bağlı olduğundan tədqiqatın nəticələri müxtəlif səviyyəli idarəetmə orqanları üçün də müəyyən əhəmiyyət kəsb edir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin “Fəlsəfə” kafedrasında yerinə yetirilmişdir. Dissertasiya işinin əsas nəzəri və tətbiqi nəticələri haqqında respublika və beynəlxalq səviyyəli elmi konfranslarda məruzələr edilmiş, həmin çıxışların mətnləri elmi konfrans materiallarında nəşr olunmuşdur. Dissertasiya işinin məzmunu, əsas müddəaları, əldə olunan nəticələri müəllifin ölkə daxilində və xaricdəki elmi məcmuələrdə çap edilən məqalələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin “ Fəlsəfə ” kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, səkkiz yarımfəsil, nəticə, əlavə və istifadə edilmiş ədəbiyyat siyahısıdan ibarətdir. Dissertasiyanın strukturunda titul hissə və mündəricat 2 səhifə - 2435 işarədən , giriş 11 səhifə - 22678 işarədən, 1.1 – 12 səhifə - 24317 işarədən, 1. 2. - 16 səhifə - 33125 işarədən, 2.1. - 14 səhifə - 28803 işarədən, 2. 2. – 15 səhifə - 30945 işarədən, 2. 3. - 14 səhifə - 29761 işarədən, 3. 1. - 12 səhifə - 24575 işarədən , 3. 2. - 13 səhifə - 28491 işarədən , 3. 3. – 15 səhifə - 28488 işarədən , nəticə - 3 səhifə - 5087 işarədən, istifadə edilmiş ədəbiyyat siyahısı 18 səhifə - 38749 işarə, əlavə 2 səhifə - 1912 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi 149 səhifə - 248898 işarədən ibarətdir.

Dissertasiyanın ümumi mətn hissəsi (şəkillər, cədvəllər, qrafiklər, əlavələr və ədəbiyyat siyahısı istisna edilməklə) isə 126 səhifə kompüter yazısı və ya 212097 işarə təşkil edir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, onun işlənilmə səviyyəsi nəzərdən keçirilir, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, elmi yenilik məqamları, nəzəri-metodoloji əsasları, elmi - nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilir, aprobasiyası və strukturu açıqlanır.

“Sosiallaşma probleminin nəzəri- metodoloji əsasları” adlanan birinci fəsil iki paraqrafdan ibarətdir və nəzəri xarakter daşıyır. Müəllif problemin sosial-fəlsəfi öyrənilməsinin nəzəri-metodoloji aspektlərini araşdırır. Bu bölmədə iddiaçı şəxsiyyətin sosiallaşması prosesinə müxtəlif yanaşmaları nəzərdən keçirir, sosiallaşma prosesinin mərhələləri, funksiyalarından bəhs etmişdir.

Bu fəslin “Sosiallaşma probleminin sosial-fəlsəfi təhlili” adlanan birinci paraqrafında göstərilir ki, şəxsiyyətin sosiallaşmasının sosial-fəlsəfi problemi insan mövcudluğunun qorunub saxlanılması, cəmiyyətin tamhüquqlu üzvü kimi formalaşması, inkişafda varislik prinsipinin təmin edilməsi, mədəni-tarixi irsin qorunması kimi məsələləri əhatə edir. Burada əsas meyar isə fərdin cəmiyyətdə mövcud olan norma və dəyərləri mənimsəmək və bununla da özünüifadə etmək bacarığına yiyələnməsidir.

Şəxsiyyətin sosiallaşması iki mərhələni əhatə edir: sosial adaptasiya və interiorizasiya. Elmi ədəbiyyatda sosial adaptasiyanın müxtəlif növləri qeyd olunur. Onlara misal olaraq sosial-mədəni, sosial-iqtisadi, sosial-siyasi, sosial-psixoloji, sosial-məişət və s. kimi adaptasiya növlərini göstərə bilərik. İnsan amili adaptasiya mərhələsini keçməyə müvəffəq olmadan sosiallaşa bilməz. Lakin sosiallaşma prosesi bu mərhələ ilə yekunlaşa bilməz. Məntiqi olaraq adaptasiyaya əsaslanan və ondan sonra gələn interiorizasiya mərhələsi şəxsiyyətin sosiallaşmasını tamamlayan proses olması ilə səciyyələnir. İnteriorizasiya dedikdə, fərdin mənimsədiyi sosial norma və dəyərlərin onun daxili aləminə keçməsi anlaşılır. Bu mərhələ həm də uzunmüddətli olması ilə

xarakterizə olunur.

Sosiallaşmanın iki əsas növünü ayırmaq olar – ilkin sosiallaşma və təkrar sosiallaşma. İlkin sosiallaşma – insanın dünyaya gəldiyi gündən onun yetkinliyə çatana qədərki dövrü əhatə edir. İlkin sosiallaşma kiçik qruplarda şəxsiyyətlərarası münasibətlər müstəvisində baş verir. Kiçik qrup dedikdə, şəxsin doğmaları və yaxınları - ailə, yaxın və uzaq qohumlar, müəllimlər, həkimlər və s. nəzərdə tutulur.

Təkrar sosiallaşma ilkin sosiallaşmanın nəticələrini nəzərə almaqla baş verir. Təkrar sosiallaşma iri sosial qrup və təşkilatlar (məsələn, məktəb, ordu, dövlət və s.) səviyyəsində baş verir. Təkrar sosiallaşma ilkin sosiallaşma zamanı yaranan böhranın nəticəsidir.

Şəxsiyyətin sosiallaşması onun şəxsi keyfiyyətlərinin sosial mühitdə itib getməsi, nisbi müstəqilliyinin aradan qaldırılması demək deyildir. Əksinə, şəxsiyyət sosial keyfiyyətlərə nə qədər dərin və hərtərəfli yiyələnərsə, o, özünəməxsus keyfiyyətlərini inkişaf etdirmək üçün daha çox imkanlar əldə etmiş olar. Başqa sözlə, ayrılıqda götürülən hər bir şəxs və ya fərd sosial münasibətlərin məcmusunu (sosial, siyasi, iqtisadi, hüquqi, mənəvi, estetik və s.) nə dərəcədə mənimsəyirsə, bir o dərəcədə də onların daşıyıcısı kimi çıxış edir.

Birinci fəslin "Şəxsiyyətin sosiallaşması prosesinə təsir edən amillər" adlanan ikinci paraqrafında müəllif bu müddəadan çıxış edir: sosiallaşma fərdin yaşadığı cəmiyyətin normalarını, dəyərlərini, özündən gözlənilən rollarını, mövqelərini, ictimai qarşılıqlı təsir üçün lazımlı bacarıqlarını, yaşadığı mədəniyyəti "mənimsəməsi" prosesidir. Sosiallaşma prosesinə təsir edən amillərdən - ailə, təhsil, kütləvi informasiya vasitələri, din, idman bəhs olunur.

Bildiyimiz kimi, ailə şəxsiyyətin inkişaf prosesini istiqamətləndirən ilk sosial qrupdur. Məhz ailə uşağa yaşamağa "dünyanın obrazı " nı verir. Bir çox hallarda insanın gələcəyi ailədə müəyyən edilir, çünki valideynlərin şəxsi xüsusiyyətləri, davranışı, ailə tərkibi, bacarıq və qabiliyyətləri uşağa birbaşa təsir göstərir. Bütün xalqlar ailəyə həmişə müqəddəs münasibət bəsləmiş, Azərbaycan xalqı isə xüsusilə, onun ləyaqətini hər zaman qoruyub saxlamışdır. Ailələr müasir Azərbaycan cəmiyyətinin yüksək inkişaf səviyyəsinin təcəssümüdür.

Təhsil - Müasir cəmiyyət bilik cəmiyyətinə əsaslanır və təhsil önəmlidir. O, mövcud və inkişafda olan elmi biliklərə istinad edərək insanın hərtərəfli inkişafına və cəmiyyətə daha yaxşı adaptasiya olmasına öz parlaq təsirini göstərir.

İnsan təfəkkürünün formalaşması, intellektual səviyyəsi, savadlılıq təhsil sistemindən asılıdır. Fərdin uğurlu inkişafında, cəmiyyətdə mövqeyə sahib olmasında, sosiallaşma prosesində təhsil başlıca amillərdən biridir, əks halda təhsildən yayınma halları insanı asosiallaşdıra bilər.

Kütləvi informasiya vasitələri - bəzi texnikalarla, müəyyən texnologiya tətbiq edərək gücləndirib çoxsaylı fərdlərə öz təsirini göstərmək imkanına malikdir. Kütləvi informasiya vasitələri fərdin cəmiyyətə inteqrasiya olunmasında, cəmiyyətin bir hissəsi olaraq mədəni dəyərləri qavramaqda, yeni dəyərlər yaratmaqda, əqidə, mövqe və davranışlarında dəyişiklik etməyə qadirdir. Müasir dünya üçün səciyyəvi odur ki, hər bir nəsil yeni texnologiyasız keçinməyin mümkünsüzlüyü faktını qəbul edir. Günümüzün inkişaf etmiş texnologiya sahəsi olan televiziyaların uşaq və gənclər üzərindəki təsiri cəmiyyətin digər seqmentlərinə nisbətən daha çoxdur. Reklam sosial əhəmiyyətli məlumatlar verən, müasir cəmiyyətin maraqlarının formalaşması, dəstəklənməsi və stimullaşdırılması üçün əsas kommunikativ informasiya məkanıdır.

Din mənəvi dünyagörüşdür. Dinin əsas rolu cəmiyyətin inkişafını stimullaşdırmaq və şəxsiyyəti formalaşdırmaqdır. İslam münasibətləri tənzimləyir və bütün bəşəriyyəti “ kamil insan ” olmağa səsləyir. Əksər dinlər kimi, insanı sosial, əqli və əxlaqi baxımdan mükəmməl bir varlıq kimi görməyi ümid edir və insanları yaxşılıq etməyə, doğru, dürüst olmağa, halallıq,mərhəmətlilik, oğurluq etməməyə, yetimlərə qayğı göstərməyə, başqalarına hörmət etməyə çağırır. Din eyni zamanda “nəzarət” və “ sosial münsif” vəzifəsini yerinə yetirir.

İdman sosiallaşma amillərindən kənarda qala bilməz. İnsanların gündəlik həyatına, sağlamlığına, onların fiziki və psixi xüsusiyyətinə, eləcə də mənəvi dəyərlərinə təsir etmək baxımından tam fərqli bir sahədir. İdmanın şəxsiyyətin dinamik sosial iştirakını təmin edən bir tədbir olması onun sosiallaşmasında da öz əhəmiyyətli rolunu oynayır. Müasir cəmiyyətdə idman insanın özünü realizə etməsinə, ilk növbədə

nəinki başqalarına, eyni zamanda özünə qalib gəlmək imkanı verir. İdman insana öz məqsədinə çatmaq üçün qurban verməyi öyrədir. O, insana qazanmaq və itirməyi, paylaşmağı, cəsarət və mübarizə əzmini aşılayır. Bir çox idmançıların fikrincə, məhz onların şəxsiyyət kimi formalaşmasında başlıca rol oynayıb.

İkinci fəsil "Müasir Azərbaycan cəmiyyətində şəxsiyyətin sosiallaşmasının xüsusiyyətləri" adlanır. Bu fəslin "Müasir Azərbaycan cəmiyyətində şəxsiyyətin sosiallaşmasının özünəməxsusluqları: sosial-fəlsəfi təhlil" adlanan birinci paraqrafında qeyd olunur ki, istənilən məkan və zamanda, müxtəlif dövr və cəmiyyətləri araşdırarkən onun nəyə qadir olduğunu, hansı keyfiyyətlərə yiyələnməsini biz onun milli ideyasında görə bilərik. Buradan aydın olur ki, məhz sosiallaşma prosesində cəmiyyətin üzvləri həmin ideologiyanı mənimsəmiş olur. Müasir dövrdə Azərbaycan cəmiyyətində şəxsiyyətin sosiallaşması prosesi zamanı Azərbaycançılıq ideologiyası onun mayakı hesab olunur. Biz hər zaman azərbaycançılığımızı-dilimizi, mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi qoruyub saxlamalı və inkişaf etdirməliyik. Milli ideyanın əsas forması kimi çıxış edən Azərbaycançılıq eyni zamanda, hər bir fərdin öz inkişafı prosesində milli-mənəvi dəyərlərini qorumaqla yanaşı, bəşəri dəyərləri mənimsəməkdən ibarətdir. Azərbaycançılıq ideyası - Azərbaycan xalqının ictimai şüurunun inkişafında yeni paradiqmadır. XXI əsrdə Azərbaycan milli ideyasının əsas tərkib hissələri bunlardır: dövlətin ərazi bütövlüyünün və müstəqilliyin qorunub saxlanması, iqtisadiyyatın hərtərəfli inkişafı, vətəndaşların firavanlığı, müasir tələblərə cavab verən təhsil standartları, mənəvi inkişaf, demokratiya, təhlükəsizlik və ondan irəli gələn tam bir sıra məsələlər. Milli ideya ölkənin inkişaf modelinin göstəricisidir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra fəlsəfi düşüncənin mərkəzində Azərbaycançılıq ideologiyası olmuşdur. Bu ideologiya gənclərimizin milli ruhda tərbiyə olunması, vətənpərvərlik, dilimizin, dinimizin, milli-mənəvi dəyərlərimizin qorunmasını özünün əsas qayəsi hesab edir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən davam etdirilən milli inkişaf strategiyasının əsasında azərbaycançılıq və müasirləşmə ideologiyası dayanır. Xalqımızın vahid ideologiya olan azərbaycançılıq

ideologiyası ətrafında sıx birləşməsi, qloballaşma prosesləri fonunda milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaq, multikultural və tolerant cəmiyyət olması onun sosiallaşma prosesinə xas olan müsbət xüsusiyyətdir.

Şəxsiyyətin sosiallaşması müasir şəraitdə aşağıdakı əsas amillərin təsiri altında baş verir:

- ictimai həyatın bütün sahələrində demokratikləşmənin ardıcıl şəkildə həyata keçirilməsi;
- azad sahibkarlığın və bazar münasibətlərinin formalaşması;
- əhalinin mədəni və şüurluluq səviyyəsinin yüksəlməsi;
- siyasi və mənəvi həyat sferalarında fikir və fəaliyyət azadlığına, plüralizmə və tolerantlığa geniş yer verilməsi;
- insanlarda mənlik şüurunun formalaşması və milli özünüdərk yolunda atılan mühüm addımlar;
- totalitar rejimin qalıqlarının aradan qaldırılmasını və açıq cəmiyyətə keçidi səciyyələndirən strateji xarakterli əsaslı dəyişiklərin baş verməsi.

İkinci fəslin "Şəxsiyyətin sosiallaşmasında multikultural proseslərin və qloballaşmanın təsiri" adlanan ikinci paraqrafında göstərilir ki, qloballaşma dövründə milli-mənəvi dəyərlərimizin qorunması, təbliği və həmin dəyərlərin insanların yaşam tərzinə, şəxsiyyətin inkişafı prosesinə müsbət təsiri əsas amil kimi götürülür. Azərbaycan xalqı tarixən zəngin, humanist məzmun kəsb edən milli-mənəvi dəyərlərə malik olmuşdur. Cəmiyyətimizdə multikultural dəyərlər milli-mənəvi dəyərlər əsasında formalaşmışdır. Müasir dövrdə multikulturalizm insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı əməkdaşlığa əsaslanmış sosial hadisədir. Bu dövlət siyasəti və həyat tərzi olmaqla, şəxsiyyətin formalaşmasında, cəmiyyətdaxili münasibətləri tənzim etməkdə böyük əhəmiyyətə malikdir.

Tarixi reallıq göstərir ki, hər hansı xalq, cəmiyyət yalnız öz mədəni identikliyini qoruyub saxlamaqla inkişaf edə bilər və buna digər xalqların qarşılıqlı mübadiləsi zamanı nail olmaq olar. Multikultural dəyərlərin tarixi bəhrələri bizə deyir ki, xalqları, millətləri bir-birinə qarşı qoymaq olmaz. Deməli, heç bir milli, dini ayrı seçkiliyə yol verməmək, hər kəsə hörmətlə yanaşmaq cəmiyyətin zəruri tələbi kimi qəbul edilir və eyni zamanda daxili mədəniyyətimizdən irəli gələn

haldır.

Azərbaycan cəmiyyətinin demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu onun müasir dövlət olmasının bariz nümunəsidir. Tarix boyu xalqımız müxtəlif xalqların milli, dini, mədəni ənənələrinə hörmətlə yanaşan tolerant ölkə olmuşdur. Hər bir cəmiyyətdə din ictimai şüurun ayrılmaz tərkib hissədir və bizim cəmiyyətdə dini, mənəvi-əxlaqi dəyərlər sistemi təkcə sözdə deyil, əməldə həyata keçirilir. Cəmiyyətimiz çoxmillətli olduğundan onun ərazisində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, xeyriyyə cəmiyyətləri və s. hər bir şəxsin milli şəxsiyyət ruhunda sosiallaşmasına yardım edir.

Hər bir şəxsiyyət dövrün tələblərinə uyğun şəkildə formalaşır. Qlobal dəyərlər milli-mənəvi dəyərlərin formaca və məzmunca zənginləşməsində mütərəqqi əhəmiyyətə malikdir. İndi qloballaşma prosesinin geniş vüsət aldığı bir zamanda milli və bəşəri dəyərləri mənimsəmiş şəxsiyyətin formalaşdırılmasına ehtiyac var. Qloballaşma prosesi cəmiyyətin bütün sahələrini – siyasi, iqtisadi, mədəni, sosial, hüquqi və s. əhatə edir. *“Qloballaşma yalnız insanın zahiri həyatına təsir etməklə kifayətlənməyərək, həm də onun şəxsiyyətinin formalaşmasında əhəmiyyətli rol oynayan amil kimi onun mənəvi dünyasına da “girir”, hətta onu idarə etməyə belə iddialanır”*[28].

İkinci fəslin üçüncü yarımfəsli isə “Azərbaycanda şəxsiyyətin sosiallaşmasına mental xüsusiyyətlərin rolu” adlanır. Hər bir fərd sosiallaşma prosesində mənsub olduğu cəmiyyətin səciyyəvi əlamətlərini tədricən və şüurlu surətdə mənimsəyir. İstənilən millətin etnik stereotipləri, məsələn, almanların pedantlığı və dəqiqliyi, italyanların tezqızışan xarakteri, azərbaycanlıların yumşaq həlim təbiəti, qonaqpərvərliyi onun sosiallaşmasında mühüm rol oynayır. Qocalara, qadınlara və uşaqlara hörmət, qonşularla dinc şəraitdə yaşamaq istəyi, dərin qonaqpərvərlik hissi, başqasının halına acımaq və ona qayğı göstərmək, vətənə və el-obaya bağlılıq hissinin möhkəm olması və s. belə milli xüsusiyyətlərdəndir.

Bütün cəmiyyətlərdə olduğu kimi, bizim cəmiyyətimizdə də

[28] Abdullayeva, N. Milli-mənəvi mədəniyyətimizdə islam dəyərləri / N. Abdullayeva.- Bakı: Biznes Universiteti Nəşriyyatı, - 2015. – 169 s.

şəxsiyyətin sosiallaşmasını səciyyələndirən cəhətlərdən biri də xalqın, toplumun çətin məqamlarda düşmənə qarşı tez bir vaxtda birləşə bilməsi, yadelli işğalçılara qarşı mübarizə ruhunda səfərbər olmağı bacarmasıdır. İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan xalqı bütün dünyaya birlik və həmrəyliyini, əzmini, vətənpərvərliyini nümayiş etdirdi. Həm hərbi, həm də siyasi müstəvidə zəfər çalan Azərbaycanda tarixi ədalət bərpa olunaraq ərazi bütövlüyümüz bərpa olundu.

Vətən müharibəsi günlərində xalqımız üçün səciyyəvi olan ən mühüm cəhətlərdən biri də milli birlik və həmrəyliyin sarsılmazlığı faktoru idi. Təsadüfi deyildi ki, İkinci Qarabağ savaşında minlərlə gənc erməni işğalçılarına qarşı mübarizə aparmaq üçün könüllü müraciət edərək cəbhəyə yollanmaq istəklərini ortaya qoydular. Arxa cəbhədə olanlar həmrəylik göstərərək öz əməlləri ilə ön cəbhədə vuruşanlara əllərindən gələn köməyi əsirgəmədilər, hər cür maddi və mənəvi dəstək verməyə hazır olduqlarını göstərdilər. Bütün bunlar bir daha onu göstərdi ki, siyasi, dini, sosial mövqeyindən asılı olmayaraq vətənin ümumi maraqları, Azərbaycan xalqının birliyi hər bir vətəndaş üçün bütün arzu və istəklərdən öndə dayanır.

İctimai qınaq məsələsi də cəmiyyətimizə xas olan xüsusiyyətlərdəndir. İctimai nəzarətin forması olmaq etibarilə ictimai qınaq cəmiyyət həyatında münasibətləri tənzimləməkdə, insanları səhv hərəkətləri etməkdən çəkindirməkdə böyük rol oynayır. Lakin, ölkəmizdə ictimai qınaq məsələsi qənaətbəxş səviyyədə deyil. Məsələn, boşanmalar arzuolunan hal deyil. Hər ay yüzlərlə ailə dağılır. Bu da birbaşa uşağın travma almasına səbəb olur və nəticədə cəmiyyətin probleminə çevrilir. Əgər cəmiyyətdə ictimai qınaq güclü olarsa, bu kimi halların sayı azalmış olar.

"Azərbaycan cəmiyyətində şəxsiyyətin sosiallaşmasının mədəni-mənəvi cəhətləri" adlanan üçüncü, sonuncu fəsil üç paraqrafdan ibarətdir. Bu fəslin "Azərbaycanın mənəvi mədəniyyəti və şəxsiyyətin sosiallaşması problemi" adlanan birinci paraqrafında vurğulanır ki, sosiallaşma vasitəsilə fərd mədəniyyətin əsas elementlərini: simvolları, mənaları, dəyərləri, normaları mənimsəyir. Bu mənimsəmə sayəsində sosial keyfiyyətlərin, xüsusiyyətlərin, əməl və bacarıqların formalaşması baş verir, insan qarşılıqlı sosial təsirin iştirakçısına çevrilir. Sosiallaşmaya sosial "Mən"nin formalaşması kimi baxmaq düzgün

olardı. Bu "Mən" hissi hər bir insanda onun aldığı tərbiyə, dünyagörüşü və davranış qaydalarına uyğun şəkildə formalaşır. Sosiallaşma prosesinin dayanması mədəniyyətin məhvi ilə nəticələnə bilər. Mədəniyyət şəxsiyyəti formalaşdırmaqla tənzimləyici rol oynayır.

Hər bir şəxs mədəniyyətlə bağlı bir neçə rolda fəaliyyət göstərir:

- mədəniyyətin məhsulu kimi: mədəniyyət və cəmiyyətin qaydalarını, normalarını və dəyərlərini mənimsəmiş həmin mədəniyyət və cəmiyyətə uyğunlaşmış tip;
- mədəniyyətin istehsalçısı kimi : insan yeni mədəni formaları yaratmaq və mövcud olanları şərh etmək iqtidarındadır;
- mədəniyyətin istehlakçısı kimi: öz həyat və fəaliyyətində dil, bilik, norma və qaydaları və s. steoreotip şəklində mənimsəmiş tip;
- mədəniyyətin ötürücüsü kimi: öz həyat və fəaliyyətində mədəni nümunələri əks etdirən insandır ki, digər insanlara məlumat verir.

Mədəniyyətin şəxsiyyətə təsiri sosiallaşma ilə yanaşı inkulturasiya prosesi vasitəsilə də baş verir. İnkulturasiya – fərd tərəfindən ictimai həyat normalarının və mədəniyyətin mənimsənilməsi prosesidir. Sosiallaşma prosesindən daha mürəkkəb sayılan inkulturasiya prosesinə insanın müəyyən vərdişlərinin yaranması və onun bunlardan düzgün yararlanması, başqa insanlarla ünsiyyət bacarıqları, ictimai davranış və ona nəzarət qaydaları və s. daxildir. " *İnkulturasiya zamanı insanın mədəniyyəti mənimsəməsi, bir tərəfdən, fərdi istək və maraqlar, digər tərəfdən isə - insana xas olan idrak və mənəvi-estetik zənginləşməyə olan meyllərlə müəyyənləşir* "[29].

Öz xarakterinə görə inkulturasiya prosesi sosiallaşma prosesindən daha mürəkkəbdir. Məsələ ondadır ki, mədəni norma, dəyər, adət və ənənələrin mənimsənilməsindən ictimai həyatda sosial qanunların mənimsənilməsi daha tez baş verir. Buna misal olaraq miqrantları gətirmək olar. İnsan hər hansı bir ölkəyə müvəqqəti və ya daimi gedirsə, ilk növbədə həmin ölkənin iqtisadi, sosial, siyasi quruluşu haqqında ilkin təsəvvürlərə malik olmalıdır.

---

[29] Əhmədova T. İnkulturasiyanin sosiomədəni aspektləri //- Bakı: Mədəniyyət dünyası, - 2009. - №18.- s.15-17.

Milli və ümumbəşəri mədəniyyət sosiallaşma prosesi sayəsində yeni nəsillərə ötürülür. Mədəniyyət cəmiyyətin düşüncə tərzininin formalaşmasında böyük əhəmiyyətə malikdir, ancaq öz bacarıq və imkanlarından sosium üzvləri necə istifadə edərlərsə, cəmiyyətə o cür töhfə vermiş olarlar. Daha geniş şəkildə desək, mədəniyyət xalqın milli varlığını əks etdirir və hər bir xalqın mentalitetini müəyyənləşdirməklə kifayətlənməyib, onun tarixi varlığının mahiyyətinə, bütün sosial-psixoloji reallıqlarına nüfuz edir.

Üçüncü fəslin ikinci paraqrafı "Azərbaycanda şəxsiyyətin sosiallaşması prosesində humanist dəyərlərin yeri və rolu" adlanır. Humanizm mürəkkəb təbiətə malik anlayış olaraq şəxsiyyətin davranışında kök salmış davamlı, müsbət münasibət kimi təzahür edir. Sosial-mənəvi hal kimi cəmiyyətdə mənlik şüurunun formalaşmasında, özünüdərkə nail olmaqda böyük əhəmiyyətə malikdir. Müasir sivil cəmiyyətin əsas imicini onun öz vətəndaşlarına nə dərəcədə humanist münasibət göstərməsi təşkil edir. İnsanın humanistliyi onun daxili vicdanı ilə əlaqəlidir. Bu cür şəxsiyyət ətrafına və sevdiklərinə böyük hörmət və sevgi ilə yanaşır, onun qəlbində insanlara paxıllıq, nifrət, kin küdurət olmur. Humanizm fərdin mənəvi azadlığını ifadə edir.

Humanizmin təsiri altında formalaşan cəmiyyətdə hökm sürən sosial münasibətlər həmin cəmiyyətdə formalaşan şəxslərin digər xalqların mədəniyyətinə, taleyinə dərin hörmət və mərhəmətlə yanaşmada aydın görünür. UNESKO-nun "humanizm" anlayışının dərk olunması yolunda irəli sürdüyü "Fikir müharibəsi insanların beynində yaranır, ona görə də sülhün qorunması ideyasını insanların şüurunda aşılamaq lazımdır" – fikri təqdirəlayiqdir.

İnsanın fundamental insani keyfiyyətlərindən uzaqlaşmasını, öz mahiyyətinə özgələşməsini "dehumanizasiya" anlayışı ilə ifadə edirlər. Tənhalığın çoxsaylı təzahürlərini, insanın cəmiyyətdən, mənəviyyatdan, dindən, təbiətdən və s. uzaqlaşmasını, özgələşməsini dehumanizasiya adlandırmaq olar. Antihumanizm insanın xeyir və şər arasında seçim etdiyi məqamdan başlayır. Z.Ağayevanın qeyd etdiyi kimi "*ən müasir dünyagörüş və mənəviyyat, XX və XXI əsrlərin insanlığa dair təsəvvürlərində humanizm və antihumanizm arasındakı münaqişənin nəticəsindən*

*asılı olacaqdır*" [30].

Dəyərlər hər bir fərd, bütövlükdə cəmiyyət üçün mühüm, tərbiyəvi, ideoloji mahiyyət kəsb edən, onun tələbatlarına cavab verən hadisədir. Şəxsiyyətin cəmiyyətdə fəaliyyəti öz-özünə baş verən xaotik proses olmayıb, müəyyən dəyərlərə əsaslanır. Şəxsiyyətin sosiallaşmasının güclü amili kimi çıxış edən dəyərlərdə eyni zamanda, bu və ya digər şəxsin həyatının mənası və məqsədləri az-çox şəkildə dolğun ifadə olunur.

Şəxsiyyətin sosiallaşmasında dəyərlərin rolu ondan ibarətdir ki, insanı müstəqil şəkildə fikirləşmək, hərəkət etmək, yaratmağa istiqamətləndirir. Digər tərəfdən dəyərlər həyatda canlanmaya, yeniliyə stimul yaradır, qarşılıqlı anlaşmaya, tolerantlığa, insanların rifahının qorunub saxlanması üçün onları xeyirxahlığa çağırır. Dəyərləri olmayan cəmiyyət ictimai nəzarət vasitəsini itirmiş olur.

"Şəxsiyyətin sosiallaşmasına virtual aləmin təsiri" adlanan üçüncü fəslin üçüncü paraqrafında göstərilir ki, müasir cəmiyyətdə internet ictimai həyatın mühüm atributuna çevrilmişdir. Sosiallaşmanın elementi kimi internet və daha geniş virtual reallıq insanın sosiallaşmasının güclü bir agenti kimi çıxış edir. Kommunikasiya prosesində internet kiberməkan yaradır və müəyyən davranış, norma, qayda və nümunələrə dəstək olur, müəyyən sosiomədəni resursları heç edir, informasiya təbəqələşmə strukturunu qurur, başqa sözlə, bir virtual cəmiyyət yaradır.

Müasir dövrdə internetin geniş rolunu həyatımızın müxtəlif sahələrində görə bilərik: onlayn alış-veriş edirik, kitabxanadan istifadə edirik, videoformatda danışıqlar aparırıq , film izləyirik , hətta evdən çıxmadan təhsil də ala bilirik. İnternetin təhsildə əhəmiyyətində onu qeyd edə bilərik ki, virtual təhsil tədris prosesində əlavə imkanlar əldə etməyə şərait yaradır:

- valideynlər öz övladlarının təhsil prosesi ilə yaxından tanış olmaq imkanları qazanır;

-təhsil prosesində bütün iştirakçılar arasında məlumat mübadiləsinin aparılmasına texnoloji imkanlar yaranır;

- bu reallıq distant təhsil almaq imkanı verir və yeni davranış,

---

[30] Ağayeva, Z. B. Müasir dövrdə dəyərlərin böhranı probleminin bəzi aspektləri// - Bakı: Qərb Universiteti. Elmi xəbərlər, - 2013. № 1, - s. 55-68

ünsiyyət formalarının meydana gəlməsində aparıcı rol oynayır;

- şagird və tələbələr informasiya-təhsil məkanında media kitabxana, ensiklopediyadan istifadə etmək imkanı qazanırlar.

Müasir cəmiyyətdə sosial şəbəkələr fərdlərin yeni sosiallaşma mühiti olaraq ən uyğun məkan sayılır. Sosial şəbəkələr cəmiyyət və dövlət, rəsmi və qeyri-rəsmi qurumların, sadə insanların bir araya gəlməsinə şərait yaradır və sosial bərabərsizlik burada özünü göstərir. Bu virtual mühit hər kəs üçün açıqdır. Qlobal miqyasda bütün insanları və mədəniyyətləri bir-birinə bağlayan bu şəbəkələr fərdlərin həyat normalarını, vərdişlərini, kimliklərini müəyyən edir. Bu baxımdan virtual ictimai məkanlar, virtual reallıq yeni paradiqmalarla şəxsiyyətlərin virtual aləmində yer alır.

Təsadüfi deyildir ki, İkinci Qarabağ müharibəsi dövründə müharibə həm də sosial şəbəkələr vasitəsilə informasiya cəbhəsində gedirdi. Bu günlərdə Azərbaycan gəncliyi haqq səsimizi dünyaya çatdırmaq üçün yorulmadan, ardıcıl surətdə bir çox kompaniyalar aparır, müxtəlif həştəqlərdən istifadə edərək erməni terrorunu, vandalizmini dünya ictimaiyyətinə çatdırmağa çalışırdı.

Müasir tədqiqatçılar elektron mühitin sosial-fəlsəfi aspektlərini bu cür qeyd edirlər:

- informasiya cəmiyyətinin inkişafı şəraitində sosial institutların transformasiyası;
- onlayn şəbəkələrin inkişafı, onların bir-birilə və ənənəvi şəbəkələrlə qarşılıqlı əlaqəsi;
- sosial kommunikasiya sistemlərinin dəyişməsinə internetin inkişafının təsiri;
- müasir, o cümlədən distant təhsilin inkişafı;
- mədəni mənsubluğun qorunması problemi;
- “elektron iqtisadiyyatın” formalaşması;
- “elektron hökumətin” formalaşması.

Tədqiqat işində aşağıdakı əsas **nəticələr** əldə edilmişdir:

- Sosiallaşmanın məzmununu fərdin ictimai münasibətlər sisteminə daxil olması, sosial əlaqələr sisteminə yiyələnməsi təşkil edir. Sosiallaşma elə bir prosesdir ki, burada hər bir dövr öz xarakterinə və tələblərinə uyğun sosiallaşmış şəxsiyyət yetişdirir. Çünki cəmiyyət inkişaf etdikcə onun heç bir üzvü bu dəyişikliklərdən kənarda qala

bilməz;

- müasir cəmiyyətdə baş verən proseslərin çoxşaxəli və rəngarəng olması şəxsiyyət və onun sosiallaşması probleminə müasir dövrün prizmasından baxmağı tələb edir;

- müasir Azərbaycan cəmiyyətində baş verən sosial-mədəni dəyişikliklər şəxsiyyətin formalaşmasında yeni sosiallaşma meylləri formalaşdırmışdır;

- şəxsiyyətin sosiallaşmasında strukturalist yanaşma - yəni, şəxsiyyət öz yaşadığı cəmiyyətin təsirinə məruz qalaraq formalaşır tezisi əksər filosoflar, sosioloqlar tərəfindən qəbul olunur. Lakin müasir dövrün reallığı belədir ki, şəxsiyyətin sosiallaşması və inkişafı yalnız cəmiyyətdən asılı deyil. Belə ki, şəxsiyyətin sosiallaşması onun özünün dünyagörüşündən, fəallıq dərəcəsindən, yaradıcı düşüncə tərzindən, təhsil və mədəni dəyərləri mənimsəmə səviyyəsindən asılıdır;

- qloballaşma şəraitində milli-mənəvi dəyərlər müəyyən təsirlərə məruz qalır. Belə şəraitdə milli identikliyi qorumaq və qlobal proseslərdən kənarda qalmamaq Azərbaycan dövlətinin müəyyən etdiyi mötədil bir yol kimi diqqət çəkir. Buna müvafiq olaraq , millilik, bəşərilik, azərbaycançılıq kimi mütərəqqi ideyalar şəxsiyyətin ideoloji tərbiyəsinin əsasını təşkil edir;

- Azərbaycan mentaliteti mürəkkəb sosial-mədəni, iqtisadi-siyasi və tarixi mühitin təsiri altında formalaşmışdır. Azərbaycan cəmiyyəti öz inkişaf yolunda birmənalı olaraq nə qərbləşmədən çıxış etmir, nə də təmiz Şərq yolunu seçmir. Azərbaycan dövləti bu iki istiqamətin sintezini təşkil edən azərbaycançılıq ideologiyasından çıxış edir. Hər bir cəmiyyətdə şəxsiyyətin inkişafı milli-mənəvi dəyərlərlə bağlıdır. Müasir Azərbaycan cəmiyyətində milli identiklik məsələsi aktuallıq kəsb edir. Bu ona görə belədir ki, qloballaşma prosesində milli ənənələrin, dəyərlərin qorunub saxlanılması çox vacibdir. Sadaladıqlarımız cəmiyyətimizdə şəxsiyyətin sosiallaşması xüsusiyyətlərini müəyyənləşdirən amil kimi çıxış edir;

- etnik, dini amillər şəxsiyyətin sosiallaşmasında böyük önəm daşıyır. Çünki, hər bir fərd hansısa bir dini və ya etnik kimliyin daşıyıcısıdır və bu amillər şəxsiyyətin milli kimliyini formalaşdırır;

- Azərbaycan dövləti multikulturalizm siyasətini həyata keçirməklə müxtəlif dinlərin və mədəniyyətlərin birgəyaşayışı və

tolerant dəyərlərin inkişafı üçün şərait yaradır. Bu isə ölkədə fərqli dinlərin, millətlərin qarşılıqlı anlaşma şəraitində yaşamasının əsasında dayanan tolerant şəxsiyyətin formalaşmasının vacib şərtidir;

- Cəmiyyətdə ziddiyyət, münaqişələrin səbəbi məhz dəyərlər sistemindəki dəyişikliklərdir. Hazırda cəmiyyətimizdə bütün sahələrdə baş verən dəyişikliklər şəxsiyyətin köhnə dəyərlərdən azad olaraq yenilərinə qovuşması prosesi ilə müşahidə olunur;

- müasir cəmiyyətlərdə virtual aləm fərdlər üçün yeni sosiallaşma mühiti yaratmaqdadır. Virtual aləmin yaratdığı geniş imkanlar sayəsində yerləşdiyi məkandan asılı olmayaraq insanlar gün ərzində saysız-hesabsız informasiya əldə edə bilirlər. Bu da insanlar üçün ilk öncə zaman və məkan baxımından böyük üstünlüklər yaradır. Eyni zamanda fərdlər sosial şəbəkələr vasitəsilə yeni ünsiyyət, fikir mübadiləsi, özünü və başqasını tanınma kimi imkanlar əldə ediblər ki, bu da virtual aləm nəticəsində mümkün olmuşdur;

- müasir insanın həyatına informasiya-kommunikasiya texnologiyalarının yüksək nüfuz etməsi sosial proseslərə öz təsirini göstərir. Kommunikasiya prosesində internet kiberməkan yaradır və müəyyən davranış, norma, qayda və nümunələrə dəstək olur, müəyyən sosiomədəni resursları aradan çıxarır, informasiya təbəqələşmə strukturunu qurur, başqa sözlə, bir virtual cəmiyyət yaradır. Sosiallaşmanın elementi kimi internet və daha geniş virtual reallıq insanın sosiallaşmasının güclü bir agenti rolunda çıxış edir. Müasir cəmiyyətdə sosial şəbəkələr fərdlərin yeni sosiallaşma mühiti olaraq ən uyğun məkanlardan sayılır.

Təcrübə göstərir ki, bu prosesdə ən çox narazılıq yaradan məqam internetə çıxışda məhdudiyyətlərin olmasıdır. Virtual aləmin imkanlarının dolğunlaşdırılması istiqamətində iki tövsiyəmi bildirmək istərdim: Birincisi, ən yeni texnologiyaların tətbiqində keyfiyyət göstəricilərinə diqqət artırılsın. İkincisi, yeni informasiya-kommunikasiya texnologiyalarının əlçatanlığını (xüsusən kənd yerlərində) gücləndirmək üçün müəyyən yollar axtarılsın.

Dissertasiyanın "Əlavə" hissəsində anket sorğusunun mətni təqdim olunmuşdur.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı tezis və məqalələrində öz əksini tapmışdır:**


1. Sosiallaşma prosesinin fəlsəfi təhlili // - Bakı: Bakı Dövlət Universiteti İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, - 2013. №20, - s. 215-222.
2. Mədəniyyət sosiallaşma amili kimi // - Bakı: Bakı Dövlət Universiteti İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, - 2014 . № 21,- s. 251-259.
3. Virtual aləm və insanın sosiallaşması // - Bakı: Sivilizasiya, Elmi-nəzəri jurnal, - 2014. №3, - s. 9-16.
4. Проблема социализации личности в Азербайджанском обществе // - Киев: Гилея, - 2015. Випуск 96 (№5), - с.415-418.
5. Şəxsiyyətin sosiallaşması prosesinə təsir edən amillər // Gənc tədqiqatçıların respublika elmi-praktik konfransının materialları, - Bakı: - 17 aprel, - 2015,- s.13-17.
6. Gənclərin sosiallaşmasında kütləvi informasiya vasitələrinin rolu // Akademik Elm Həftəliyi-Beynəlxalq Multidissiplinar Forum, - Bakı: - 02-04 noyabr, - 2015, - s.185-187.
7. Müasir Azərbaycan cəmiyyətində şəxsiyyətin sosiallaşmasında mədəni-dini amilin rolu // "Qafqazda mədəni-dini irsin qorunması" mövzusunda beynəlxalq konfransın tezislər toplusu, - Bakı: - 2015,- s. 66-68.
8. Gender bərabərsizliyinin aradan qaldırılmasında İKT-nin rolu // "Qloballaşan dünyada dəyişən gender rolları" mövzusunda beynəlxalq elmi konfrans, - Bakı: - 05 dekabr, - 2015, - s. 290-294.
9. Şəxsiyyətin sosiallaşması prosesində humanist istiqamət // - Bakı: Geostrategiya, - 2016. may-iyun. № 3 (33), - s.74-76.
10. Multikultural mühitdə şəxsiyyətin sosiallaşması // Doktorantların və gənc tədqiqatçıların XX respublika elmi konfransının materialları, - Bakı: 2016, - s. 466-468.
11. Azərbaycan multikulturalizm və dözümlülük nümunəsi kimi // "XXI əsrdə dünya elminin inteqrasiya prosesləri" Gənclərin beynəlxalq elmi forumu, - Gəncə: - 10-14 oktyabr, - 2016, - s. 432-434.
12. İdman insanı sosiallaşdırma vasitəsi kimi // "Çağdaş dövr və sosial elmlərin aktual problemləri" mövzusunda Ümumrespublika

elmi-praktik konfransının materialları, - Bakı: - 19 dekabr, - 2016, - s. 394-397.
13. İctimai şüur sosiallaşmanın vacib amili kimi // - Bakı: Mədəniyyət dünyası, - 2016-dekabr. № 32, - s. 119-124.
14. Соотношение традиции и современности в социализации личности // XI международная конференция «Обмен результатами исследований в рамках международного сближения ученых», - Монреаль: - 23 февраль, - 2017, - с. 80-83.
15. Şəxsiyyətin sosiallaşmasında islam dini dəyərlərinin rolu // "İslam həmrəyliyi-2017: reallıqlar və perspektivlər" mövzusunda respublika elmi-metodik konfransının materialları, - Bakı: - 25-26 aprel, - 2017, - s. 23-24.
16. Ailə şəxsiyyətin sosiallaşmasının ilk özəyi kimi // Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı, - Bakı: - 05-06 may, - 2017, - s. 1149-1150.
17. Təhsilin şəxsiyyətin sosiallaşmasında başlıca rolu // Doktorantların və gənc tədqiqatçıların XXI respublika elmi konfransının materiaları, - Bakı: - 24-25 oktyabr, - 2017, - s. 46-48.
18. Azərbaycan Xalq Cümhuriyyəti dövründə insan kapitalı // "Azərbaycan Xalq Cümhuriyyəti: tarixi retrospektivlik və müasirlik" mövzusunda elmi konfransın materialları, - Bakı: - 20 fevral, - 2018, - s. 265-270.
19. Şəxsiyyətin sosiallaşmasında Azərbaycançılıq ideologiyasının rolu // Dünya azərbaycanlıları: tarix və müasirlik II Respublika Elmi konfransının materialları, - Bakı: - 21-22 dekabr, - 2018, - s. 99-103.
20. Роль нравственных ценностей в социализации личности // - Хабаршы: вестник, - 2018. № 3 (58), - с. 184-189
21. Əmək mədəniyyətinin şəxsiyyətin inkişafında rolu // Gənc tədqiqatçıların II respublika elmi-praktik konfransının materialları, - Bakı: - 15 mart, - 2019, - s. 236 - 237.
22. Religious as main impact factor to socialization // 6-я Международная конференция «Наука как движущая антикризисная сила», - Киев: - 31 август, - 2019, - с. 99 -100.
23. Azərbaycanda İKT-nın inkişafının şəxsiyyətin sosiallaşmasına təsiri

// Bakı: Gənc tədqiqatçı jurnalı, - 2019. №2, cild 5, - s. 230-234.
24. Sosial şəbəkələrin şəxsiyyətin sosiallaşmasında rolu // - Bakı: Mədəniyyət dünyası jurnalı, - 2020. № XXXVIII, - s. 233-237.
25. İkinci Qarabağ müharibəsi milli birliyimizin təcəssümü kimi // Mədəniyyət: problemlər və perspektivlər: “Qarabağ Azərbaycandır!“ adlı Doktorant və gənc tədqiqatçıların XIV beynəlxalq elmi konfransının materialları, - Bakı: - 11-12 mart, - 2021, - s. 392-395.



Dissertasiyanın müdafiəsi 18 may 2021- ci il tarixində saat 11⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1143, Hüseyn Cavid prospekti, 115, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, IX mərtəbə .

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 14 aprel 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 06.04.2021

Kağızın formatı: A5

Həcm: 37913

Tiraj: 100